# SERTOPİN FORTE

**30 KAPSUL**

**TƏRKİBİ:**

| | |
|---|---|
| Pankreatin (*Pancreatin*) | 120 mq |
| Serratiopeptidaza (*Serratiopeptidase enzyme*) | 60 mq (120000 BV) |
| Nattokinaza (*Nattokinase*) | 35 mq (700 BV) |
| Essensial fosfolipidlər (*Essential phospholipids*) | 50 mq |
| Tripsin (*Trypsin*) | 10 mq (360 BFF) |
| Ximotripsin (*Chymotrypsin*) | 2 mq (300 BFF) |

**XÜSUSİYYƏTLƏRİ:**

**Pankreatin** lipaza, amilaza və proteazadan ibarət mədəalti vəzin fermentidir. Orqanizmin özünün ferment çatışmazlığını və yetərli aktivliyinin olmamasını kompensasiya edir, həzm prosesini yaxşılaşdırır. Orqanizmdə zülalların aminturşulara, karbohidratların dekstrin və monosaxaridlərə, lipidlərin qliserin və yağ turşularına parçalanmasını, mənimsənilməsini təmin edir. Mədə-bağırsaq traktının funksiyasını və həzm prosesini tənzimləyir.

**Serratiopeptidaza** fibrinolitik, iltihabəleyhinə və ödeməleyhinə təsirə malikdir. Serratiopeptidaza iltihab ocağında bradikinin, serotonin və histaminin konsentrasiyasını azaltmaqla iltihabəleyhinə təsir göstərir. Damarların vazodilatasiyasını və keçiriciliyini azaldır.

**Nattokinaza** təkibindəki proteza, 275 növ amin turşu hesabına güclü fibrinolitik təsir göstərir.

**Essensial fosfolipidlər** hüceyrə membranının və orqanellaların membranlarının əsas sturuktur elementi olmaqla membran keçiriciliyini və oksidləşmə-fosforlaşma reaksiyalarını tənzimləyir, eyni zamanda iltihabi proseslərin qarşısını alır. Doymamış yağ turşuları lipid mübadiləsində iştirak etməklə xolisterin, triqliserid və araxidon turşusunun metabolizmini tənzimləyir.

**Tripsin və Ximotripsin** – zülalları və peptidləri parçalayır, həmçinin esteraz (mürəkkəb efirlərin hidrolizi) aktivliyə malikdir. Tripsin və ximotripsin iltihab əleyhinə və ödem əleyhinə təsirlərə malikdir, nekroza çevrilən toxumaları seçici parçalama xüsusiyyətinə malikdir. İmmunomodulyator təsirə malikdir, iltihabı və limfatik ödemləri azaldır, yaraların sağalmasını sürətləndirir, trombun əmələ gəlməsinin qarşısını alır. Yaraların, yanıqların, trombozların müalicəsində digər fermentlərlə və antibiotiklərlə birgə istifadə olunur. Tripsin mədəaltı vəzinin stimullaşdırılmış sekresiyasını inhibə edərək, ikincili analgetik təsir göstərir.

**İSTİFADƏSİNƏ GÖSTƏRİŞLƏR:**

**Ginekologiya:** Yumurtalıq və uşaqlığın kistası, fibroz –kistoz mastopatiya, kiçik çanaq orqanlarının irinli –iltihabi xəstəlikləri, endometrioz, tubo ovarial abses, piosalpinks, mastit, septiki abort, uşaqlıq borularının iltihabi xəstəliyi, sonsuzluq, hematoma, histerektomiyadan sonra, keysəriyyə əməliyyatından sonra bitişmələrin profilaktikası məqsədilə.

**Pulmonologiya:** Yuxarı tənəffüs yollarında bəlğəmin asan ayrılması və antibiotiklərin asanlıqla iltihab ocağına keçməsini yaxşılaşdırmaq məqsədilə, pnevmoniya, plevrit, ağciyərin xroniki obstruktiv xəstəliyi

**LOR**: otit, kəskin və xroniki sinusit, kəskin və xroniki rinit, burun boşluğunun polipləri, laringit

**Urologiya:** sidik yollarının infeksion- iltihabi xəstəlikləri, prostatit, uretrit

**Cərrahiyə:** əməliyyatdan sonra fəsadların profilaktikası və müalicəsi, posttravmatik və limfatik ödemlər, çapıq bitişmələrin profilaktikası məqsədilə

**Nevrologiya:** nevrit, radikulit, diabetik polineyropatiya, miozit

**Endokrinologiya:** hipotireoz, autoimmun tireodit, qalxanvari vəzin kistaları, hipotireoz, diabetik angiopatiya

**Revmatologiya:** revmatoid artrit, angilozlaşdırıcı spondilit, artritlər,osteoartroz

**Angiologiya:** tromboflebit,vaskulit, obliterasiyaedici trombangit, dərin venaların trombozu

**Nefrologiya:** kəskin və xroniki qlomerulonefrit, pielonefrit

**Dermatologiya:** kəskin dermatozlar, dermatit, akne

**Onkologiya:** əməliyyatdan sonra, kimyəvi və şüa terapiyası zamanı infeksion fəsadların profilaktikası

**İstifadə qaydaları və doza:** 14 yaşdan yuxarı uşaqlar və böyüklər: 1 kapsul gündə 1 dəfə.

**Əks göstərişlər:**Məhsulun hər hansı komponentinə qarşı fərdi həssaslıq.

**Buraxlış forması:**İçlik vərəqə ilə karton qutuya yerləşdirilmiş blisterlərdə 30 kapsul.

**Yararlılıq müddəti:** 3 il

**Saxlanma şəraiti:** 25°C-dən yüksək olmayan temperaturda, quru və uşaqların əli çatmayan yerdə saxlanılmalıdır.

**İstehsalçı: İlaçsan Medikal Sanayi ve Dış Ticaret Limited Şirketi.,Türkiyə**

*GESFRELEB GmbH Almaniya şirkətinin sifarişi əsasında hazırlanmışdır.*

*Beynəlxalq akkreditasiya olunmuş* ***LotusLab*** *laboratoriyası tərəfindən analiz edilmişdir.*

ANIMED